Dünyaya gələn uşaqlar arasında cinsə görə nisbətin oğlanların xeyrinə pozulması qızlara və qadınlara qarşı ayrı-seçkilik və onların hüquqlarının pozulmasının göstəricilərindən biridir (UNFPA).

Hazırda Azərbaycan doğulan uşaqlar arasında cinsə görə nisbətin ən çox pozulduğu ölkələr sırasındadır.

BMT-nin Əhali Fondunun hesablamalarına görə, Azərbaycanda doğulan uşaqlar arasında cinsə görə nisbətin ciddi şəkildə pozulması davam edərsə, 2050-ci ilə qədər hər il doğulan oğlan uşaqlarının sayı qız uşaqlarının sayından 12000-15000 nəfər çox olacaq. Oğlan uşaqlarının sayında artım bu və ya daha artıq templə davam edərsə, ölkə tezliklə ictimai həyatın bütün sahələrində gender fərqliliyinin azalması (maskulinizasiya) kimi acınacaqlı fəsadla üzləşəcək. Belə olduqda isə gender balansını sonradan bərpa etmək xeyli çətinləşəcək.




**BU VƏZİYYƏTİN QARŞISINI ALMAQ ÜÇÜN GENDER ƏSASLI CİNS SEÇİMİNƏ "YOX" DEYƏK, QIZLARIMIZA DƏYƏR VERƏK VƏ ONLARIN İNKİŞAFINA ŞƏRAİT YARADAQ!**

Bu buklet Avropa İttifaqının maliyyə dəstəyi ilə BMT-nin Əhali Fondunun (UNFPA) Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) ilə birgə həyata keçirdiyi "Cənubi Qafqazda gender əsaslı cins seçimi (GƏCS) və digər zərərli təcrübələrin aradan qaldırılması" proqramı çərçivəsində UNFPA və AQUPDK tərəfindən hazırlanıb

Buklet Avropa İttifaqının maliyyə dəstəyi ilə ərsəyə gəlib. Bukletin məzmununa görə məsuliyyət yalnız müəlliflərə aiddir və məzmun Avropa İttifaqının və ya layihə tərəfdaşlarının mövqeyini əks etdirməyə bilər.

BMT-nin Əhali Fondu

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

## Dəstək Xətti - 860

Gender əsaslı zorakılıq / məişət zorakılığı ilə bağlı məlumat və psixoloji konsultasiyaların təqdim edilməsi

© 2022, BMT-nin Əhali Fondu

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir



# Gender bərabərliyi ana bətnindən başlayır!

# Gender Əsaslı Cins Seçiminə YOX deyək!

## GENDER ƏSASLI CİNS SEÇİMİ (GƏCS)

GƏCS doğulan uşaqlar arasında cinsə görə nisbətin pozulmasına birbaşa təsir göstərən amildir. Bioloji normaya görə, dünyaya gələn hər 100 qız uşağına düşən oğlan uşağının sayı heç bir xarici müdaxilə olmadıqda 102-106 arasında dəyişir. Bu göstəricinin 106-dan çox olması gender əsaslı cins seçiminə, yəni oğlan uşaqlarına üstünlüyün verilməsinə işarə edir. 1990-cı illərin əvvəllərindən başlayaraq Azərbaycanda cins nisbətinin pozulması müşahidə olunmağa başladı.

| il | oğlanlar |
|---|---|
| 1990 | 107 |
| 1996 | 112 |
| 2000 | 115 |
| 2010 | 117 |
| 2016 | 114 |
| 2018 | 115 |
| 2020 | 114 |
| 2021 | 116 |

Mənbə: Dövlət Statistika Komitəsi (Əhali/Gender göstəriciləri) 2022

## GENDER ƏSASLI CİNS SEÇİMİNƏ ŞƏRAİT YARADAN AMİLLƏR

### Oğlan uşaqlarına üstünlüyün verilməsi

Oğlan uşaqlarına üstünlüyün verilməsi onlara daha yüksək dəyər aşılayan patriarxal ailə strukturu, ənənəvi təcrübələr və sosial normaların təzahürüdür və ölkədə gender əsaslı cins seçiminin kökündə dayanan əsas səbəbdir. BMT-nin Əhali Fondu (UNFPA) və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) tərəfindən 2018-ci ildə birgə həyata keçirilmiş "Kişilərin Gender Bərabərliyinə Münasibətinə dair Tədqiqat"ın nəticələrinə görə həm kişi, həm də qadın respondentlər ailədə qız uşağından çox oğlan uşağının olmasına üstünlük verir – qadınlarla müqayisədə kişilər oğlan uşaqlarının sayının daha çox olmasını istəyirlər:

| Üstünlük | Kişilər tərəfindən (%) | Qadınlar tərəfindən (%) |
|---|---|---|
| Qız uşaqlarının daha çox olması | 6,0 | 17,5 |
| Oğlan uşaqlarının daha çox olması | 41,5 | 18,3 |
| Yalnız qız | 0,6 | 1,5 |
| Yalnız oğlan | 6,0 | 6,7 |
| Bərabər say | 52,4 | 64,2 |

### Nəsilvermədə tənəzzül

1990-cı illərdə nəsilvermədə baş verən tənəzzül dünyaya gələn uşaqlar arasında cinsə görə nisbətin pozulmasına şərait yaratmışdır. Belə ki, ailədə uşaqların sayı azaldıqca oğlan uşaqlarına üstünlük verilməsi daha aydın şəkildə özünü büruzə verməyə başladı.

| illər | nəsilvermə əmsalı |
|---|---|
| 1961 | 5.2 |
| 1975 | 3.7 |
| 1990 | 2.8 |
| 2001 | 1.8 |
| 2010 | 2.3 |
| 2017 | 1.9 |
| 2020 | 1.7 |
| 2021 | 1.5 |

BMTƏF tərəfindən 2014-cü ildə aparılmış təhlil doğulan uşaqların cinsinə görə nisbətinin ikinci və üçüncü doğuşdan sonra daha da artdığını göstərir.




### Müasir tibbi texnoloji vasitələrdən sui-istifadə

Dölün cinsiyyətini müəyyən etməyə imkan verən ultrasəs müayinə cihazlarının əlçatanlılığı və geniş istifadəsi zəminində oğlan uşağına verilən üstünlük nəticəsində edilən selektiv abortlar doğulan uşaqlar arasında cinsə görə nisbətin pozulmasına yol açır. Belə ki, ailədə uşaqların sayının tənzimlənməsi üçün digər vasitələrlə müqayisədə selektiv abortlardan daha geniş istifadə olunur.

Azərbaycan Respublikasının qanunvericiliyində gender bərabərliyinin təminatı ilə bağlı müddəalar olsa da, cəmiyyətdə mövcud olan ənənəvi sosial normalar, ayrı-seçkiliyə əsaslanan gender davranışları və stereotip yanaşmalar bərabərliyin təmin olunmasına maneələr yaradır.

**Oğlan uşaqlarına verilən üstünlüyə haqq qazandıran inanclar**

- Nəslin və soyadın davamının təmin edilməsi
- Ailənin qorunması
- Ölkənin müdafiəsi
- Mülkiyyətin vərəsəlik üzrə ötürülməsi
- Maliyyə təminatı/yaşlı valideynlərə maddi dəstəyin göstərilməsi
- Adət-ənənələrə riayət olunmasının təmin edilməsi

**Qızlara daha az dəyər verilməsinə haqq qazandıran inanclar**

- Qızların "köçəri quş" hesab edilməsi
- Maddi yük kimi qəbul edilməsi
- Namusun qorunması
- Tərbiyə etməyin/qorumağın çətinliyi

UNFPA-in Azərbaycan Hökuməti ilə birgə hazırladığı "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı" 2020-ci ilin fevral ayında Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilib. Tədbirlər Planı gender əsaslı cins seçiminin qarşısının alınmasında müfəssəl yol xəritəsi rolunu oynayır. Tədbirlər Planının uğurlu icrası vasitəsilə doğulan uşaqlar arasında cinsə görə nisbətin bioloji normaya uyğunlaşması Azərbaycan hökumətinin qarşıya qoyduğu əsas məqsədlərdəndir.